## Qafar CƏFƏRLİ - 68

# YAZIÇI-DRAMATURQ BARƏDƏ DÜŞÜNCƏLƏRİM



**İlqar İSMAYILZADƏ,**
**"Həməşərə" mətbu orqanının təsisçisi və baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

**Qısa tanıtım:**

Qafar İltifat oğlu Cəfərli 07 mart 1957-ci ildə Lənkəran rayonunun Viyən kəndində müəllim ailəsində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra istehsalatda çalışmış, sonra Azərbaycan Dövlət Universitetinin (hazırkı BDU) filologiya fakültəsində təhsil almışdır. Ordu sıralarında xidmətdən qayıtdıqdan sonra isə ADU-nun hüquq fakültəsinin əyani şöbəsinə qəbul olmuşdur. 1983-cü ildə hüquqşünaslıq ixtisası üzrə ali təhsilini başa vurub Daxili İşlər orqanlarında xidmətə başlamış, uzun illər məsul vəzifələrdə çalışmışdır. 1988-1992-ci illər ərzində Qarabağın əksər rayonlarında xidməti ezamiyyətlərdə olaraq torpaqlarımızın erməni və rus qəsbkarlarından müdafiə olunmasında iştirak etmişdir. 1-ci Qarabağ müharibəsinin veteranı, təqaüddə olan polis polkovniki olmaqla yanaşı, həm də polis veteranıdır.

Qafar Cəfərli cinayət axtarışı sahəsində işlədiyi uzun illər ərzində saysız-hesabsız cinayət hadisələrinin açılmasında bilavasitə iştirak etmiş, yaxud keçirilən əməliyyatlara rəhbərlik etmişdir.

Onun bədii yaradıcılıq sahəsində ilk addımları orta məktəbdə oxuduğu illərə təsadüf edir. Atası mərhum İltifat Cəfərov da ədəbiyyata böyük sevgisi olan söz adamı olub. Yazdığı şeirlərin bir qismi 2007-ci ildə nəşr olunmuş "İlahi fürsət ver" adlı kitabda çap olunmuşdur. Güman ki, Qafar Cəfərlidə ədəbiyyata olan sevgi məhz bu bulaqdan qaynaqlanır.

Qafar Cəfərli orta məktəb, sonralar tələbəlik və hüquq-mühafizə orqanlarında xidmətdə olduğu illər ərzində müxtəlif qəzet və jurnallarda bədii və publisistik yazılarla mütəmadi olaraq çıxış etmişdir.

2012-ci ildə təqaüdə çıxdıqdan sonra Lənkəranda fəaliyyət göstərən "Region TV" nin (indiki ARB TV) nəzdində olan "Cənub TV"də aparıcı işləmişdir. Televiziyada işlədiyi dövrdə incəsənətə olan hədsiz sevgisi səbəbindən o, özünün əsərləri əsasında "İzi itməyən cinayətlər" layihəsi çərçivəsində çəkilmiş filmlərdə və ATV-nin sifarişi ilə çəkilən 169 bölümdən ibarət "Günəşim ol" serialında həvəskar aktyor kimi çəkilmişdir.

Qafar Cəfərlinin 2014-cü ildə "Əməliyyatçı", 2015-ci ildə "Günahsız mələk", 2016-cı ildə "Kimsə Sizlər", 2017-ci ildə "Lətifədən lətifəyə", 2018-ci ildə "Saatın 61-ci dəqiqəsi", 2020-ci ildə "Bir gecənin vahiməsi", 2021-ci ildə "Payızın 44 anı" (Xatirə Xatunla birgə) və "Tanrının göz yaşları", 2023-cü ildə "Volşebnaya noç" (rus dilində) və "Ömür yolu", 2024-cü ildə "Odinikovaya jenşina" (rus dilində) və "Qıl körpüsündə rəqs" adlı hekayələr, povestlər, pomanlar, novellalar və pyeslərdən ibarət kitabları işıq üzü görmüşdür.

Qafar Cəfərlinin pyesləri Lənkəran və Füzuli Dövlət Dram Teatrlarında tamaşaya qoyulmuşdur.

Qafar Cəfərli 17 avqust 2020-ci il tarixdə AYB Lənkəran Zona Bölməsinin sədri təyin olunmuş və bu günə kimi həmin vəzifədə uğurla çalışmaqdadır.

Ədəbiyyatımızın inkişafında və təbliğində Qafar Cəfərlinin xidmətləri yüksək qiymətləndirilmişdir. O 2017-ci ildə "Azərbaycan bayrağı" və "Qızıl Qələm" media mükafatlarına, 2018-ci ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "Qızıl ulduz" və Diplomuna, həmin ildə Prezident təqaüdünə, 2022-ci ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "Beynəlxalq mükafatı"na və AYB-nin "Səməd Behrəngi" ədəbi mükafatına, 2023-cü ildə "Rəsul Rza" beynəlxalq ədəbi mükafatına və "Bəxtiyar Vahabzadə" ədəbi mükafatına, 2024-cü ildə isə narkomaniya mövzusunda yazılan hekayələr müsabiqəsində fəxri yer tutduğuna görə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və "Ulduz" jurnalının Diplomuna layiq görülmüşdür.

Qafar Cəfərlinin bədii və publisistik yazıları mütəmadi olaraq ölkənin ədəbi-bədii, publisistik qəzet və jurnallarında işıq üzü görür.

Qafar Cəfərli həm də AYB Lənkəran Zona Bölməsinin ədəbi-bədii orqanı olan "Şəfəq" jurnalının baş redaktorudur.



**Subyektiv baxışlarım:**

Qafar müəllim barədə ilk məlumatlarım internet üzərindən olsa da, ünsiyyətdə olduğum çoxlu sayda ədəbiyyat adamından haqqında gözəl sözlər və fikirlər eşitmişdim.

Daha sonralar bir neçə tədbirdə onu yaxından görüb tanış oldum, bəzi hekayələrini oxuyub qələm bacarığını, həmçinin tədbirlərdəki çıxışlarını izləyib kübar və ziyalı bir şəxsiyyət olduğuna şahid oldum.

Qafar müəllimin malik olduğu müsbət xüsusiyyətlər barədə daha geniş yazmaq mümkün olsa da, bu qısa təqdimat yazısında onun əsas xüsusiyyətlərini öz subyektiv baxışlarım çərçivəsində oxuculara təqdim etmək istəyirəm:

***1. İstedadlı yazıçı, dramaturq***

Şərəfli ömrünün artıq 68-ci ilini geridə qoyan Qafar Cəfərli hələ orta məktəb illərindən etibarən əlinə qələm almış və bədii ədəbiyyat sahəsində yaradıcılıqla məşğul olmuşdur. Onun indiyədək nəşr olunmuş əsərləri sözün həqiqi mənasında istedadlı bir yazıçı,dramaturq olduğunu sübut edir.

O, hal-hazırda Cənub bölgəsinin və ümumilikdə bütün Azərbaycanın yazıb-yaradan və peşəkar səviyyəli ədəbi əsərlər ərsəyə gətirən yazıçı-dramaturqdur. Qafar müəllim yaradıcılığının ilk dövrlərində detektiv janrda ard-arda hekayələr və povestlər yazmışdır. Məncə Qafar müəllimin peşəkar hüquqşünas olaraq uzun illər ərzində cinayət axtarış sahəsində apardığı əməliyyatların təcrübəsindən yararlanaraq yazdığı əsərləri xüsusi diqqət və səmimiyyətlə qələmə alması onun bədii yaradıcılıq uğurlarının açarıdır. Təbii ki, onun cəmiyyətimizin və həyatımızın bütün sahələrini əhatə edən, real həyat hekayətlərinə əsaslanan çox saylı əsərləri də hər zaman oxucular tərəfindən sevilə-sevilə oxunub və oxunmaqdadır.

***2. Bacarıqlı təşkilatçı və rəhbər***

Qafar müəllimi kənardan müşahidə edərkən onun ən üstün xüsusiyyətlərindən birinin bacarıqlı təşkilatçı və layiqli rəhbər olmasında görürəm. O, təkcə 2020-ci ilin avqust ayının 17-sindən etibarən AYB Lənkəran Bölməsində sədrlik vəzifəsinə başlayandan bu günə kimi bunu layiqincə sübut etmiş və sübut etməkdədir. Bölmədə normal iş şəraiti yaratmaq üçün atdığı addımlar, 44 günlük Vətən müharibəsi dövründə AYB Lənkəran Bölməsinin xüsusi və səmərəli fəaliyyəti, mütəmadi olaraq söz adamları ilə görüşlər, anım və xatirə günləri, yubiley tədbirləri, kitab və jurnal təqdimatları, ölkə səviyyəli tədbirlərin keçirilməsi, Lənkəran Dövlət Dram Teatrında yerli müəlliflərin əsərlərinin tamaşaya qoyulması və s. bu layiqli idarəçiliyin nümunələridir.

Məlumat üçün qeyd etmək lazımdır ki, onun sədrlik etdiyi bölmə hal-hazırda Odlar Yurdu Azərbaycanın Cənub bölgəsində yerləşən 6 rayonunda (Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı və Cəlilabad) yaşayan yüzdən çox AYB üzvünü və xeyli sayda şeir, poeziya və nəsr sahəsinin tanınan qələm əhlini öz ətrafında birləşdirir. Onların yazıları və şeirlərinin bölgə və respublika səviyyəli mətbu orqanlarda çap edilməsi təmin edilir, tez-tez Lənkəran şəhəri və eləcə də, digər rayonlarda bir-birindən maraqlı və faydalı ədəbi silsilə tədbirlər təşkil olunur. Bu arada Bölmə tərəfindən nəşr edilən jurnal, kitab və antologiyaların da, öz yeri, öz tərifi var...

Heç şübhəsiz, belə bir böyük təşkilatı layiqincə idarə etmək üçün ilk öncə idarəçi və rəhbər şəxsin təşkilatçılıq və idarəçilik bacarığı olmalıdır. Qafar müəllim isə bunu AYB Lənkəran Bölməsinə sədr təyin edildiyi gündən indiyədək layiqincə sübut etmişdir.

***3. Gənc nəslə qarşı qayğıkeşlik***

Qafar müəllimin ən önəmli xüsusiyyətlərindən biri də, onun bölgə yazarları (şairlər və nasirlər) arasında xüsusilə gənclərə qarşı göstərdiyi qayğıkeşlik, ümumi baxımdan isə sərgilədiyi mənəvi atalıq bacarığıdır. Məncə o, bunun öhdəsindən layiqincə gəlməyi bacarır.

Qafar müəllim bölgədə yaşayan, lakin respublikanın öncül ədəbiyyat dərgilərində çap olunmayan yazarların, xüsusilə də, gənc yazarların çap olunmasını öz iş planına daxil etmiş və beləliklə də, indiyədək onların xüsusi təqdimat əsasında "Ədəbiyyat qəzeti", "Ədalət", "Azad Azərbaycan", "Ulduz", "Şəfəq", "Yurd", "Xəzan" və digər bu kimi qəzet və jurnallarda çap olunmasına şərait yaratmışdır. Heç şübhəsiz, bədii ədəbiyyat nümunələrinin hansısa bir jurnal, qəzet və internet saytında yayımlanması qələm sahibi üçün ən böyük dəstək sayılır.

***(Davamı 6-cı səhifədə)***

*(Əvvəli 3-cü səhifədə)*

**4. Dövlətçiliyə sədaqət**

Dövlət və Dövlətçilik hər bir millətin kimliyi, mənliyi, rifahı, milli-mənəvi dəyərləri, eləcə də, hər bir ölkənin ərazi bütövlüyü, suverenliyi və inkişafının əsas təminatçısıdır. Hər bir vətəndaş hər şeydən öncə öz dövlətçiliyinə sadiq olmalı, onu göz bəbəyi kimi qorumalıdır. Çünki dövlətçilik olmadıqda və ya zəiflədikdə, yuxarıda sadaladıqlarımın heç biri amanda qalmır.

1990-cı illərdə,Ordumuzun hələ formalaşmadığı dövrdə milisin Qarabağda erməni işğalçıları ilə mübarizədə fəal iştirak etməsi, bu yolda çoxlu şəhidlər verməsi hər kəsə bəllidir. Qafar Cəfərli də 1-ci Qarabağ müharibəsinin iştirakçısıdır. Füzulu, Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının, Şuşanın düşmən qəsdindən müdafiə olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Müharibə veteranı olaraq vətənpərvərlik, doğma torpağa, Vətənə olan sevgi əsərlərində qırmızı xətt kimi keçir.

Qafar Cəfərli doğma elimizin öz milli-mənəvi dəyərlərinə sadiq olan tanınmış ziyalı şəxsiyyətləri, yazıçı-dramaturqu və publisistlərindən biri olmaqla yanaşı həm də, hər zaman dövlətçiliyə sadiq olan önəmli simalardan sayılır. Onun müxtəlif dövlət orqanlarında çalışması da, dövlət və dövlətçilik ənənələrinin mükəmməl səviyyədə öyrənməsi və mənimsəməsinə təkan vermişdir.

# YAZIÇI-DRAMATURQ BARƏDƏ DÜŞÜNCƏLƏRİM

**5. Əsil kübarlıq və insanlıq nümunəsi**

Bir insan ali təhsil alıb bir və bir neçə diplom, elmi dərəcə sahibi, bacarıqlı qələm sahibi olaraq çoxsaylı şeir, hekayə, povest və romanların müəllifi, yüksək vəzifələrə yiyilənib əmr və söz sahibi, həmçinin, həyatda maddi imkan baxımından zəngin və varlı bir şəxs ola bilər. Lakin heç şübhəsiz, bütün bunlardan daha önəmli olanı insanın bu fani və ötəri həyatda insanlığı, mədəniyyəti, etikası və insani dəyərləridir. İnsana qalan və özü ilə o biri aləmə aparacağı da, məhz budur.

Qafar müəllimi yaxından və uzaqdan tanıyan hər bir insan onun həyatda bütün yüksək vəzifələr, bacarıqlı qələm əhli və digər imtiyazlarına rəğmən hər zaman əsil ziyalı şəxsiyyət, yüksək mədəniyyət və etika sahibi, həmçinin, həyatda və cəmiyyət arasında kübar insan olduğunu təsdiq edə bilərlər. Bunu onun davranış tərzi, danışığı və müxtəlif sahələrə aid olan mövqeyindən də görmək mümkündür. O, sözün həqiqi mənasında öz varlığı və bütün dəyərləri ilə ölkənin cənub bölgəsində mövcud olan ədəbi mühiti nizamlayan, onun tərəqqisi və inkişafına xüsusi rövnəq verən mayak və ziyalı ağsaqqaldır.

Mən və məndən yaşda kiçik olanlar Qafar müəllim kimi kübar və ziyalı bir yazıçı-dramaturqla eyni ölkə və eyni bölgədə eyni vaxtda yaşamağa görə fəxarət hissi keçirir, gələcək zamanlarda da, bunu xüsusi hörmət və ehtiramla yad edəcəyik.

Sonda Ulu Tanrıdan dəyərli yazıçı-dramaturq, ziyalı və kübar şəxsiyyət Qafar Cəfərlini 68 yaşı münasibəti ilə səmimi-qəlbdən təbrik edir, ona uzun, sağlam və mənalı ömür, yaradıcılıq sahəsində davamlı və bərəkətli uğurlar diləyirəm!

*15.03.2025*